***İdman sağlamlıq və gözəllikdir. Bəlkə, buna görə, "Sağlam bədəndə sağlam ruh olar" deyiminin işlənməsi, heç də təsadüfi deyil. Bədən tərbiyəsi və idman ümumi tərbiyənin bir hissəsi, cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi, insanların sağlamlığını möhkəmlətməyə, fiziki bacarığını inkişaf etdirməyə yönəldilmiş ictimai fəaliyyət sahəsidir. İdman təkcə idmançılar arasında deyil, həm də xalqlar arasında dostluq münasibətlərinin yaranması və möhkəmlənməsində də mühüm rol oynayır. Sovetlər dönəmində Azərbaycanın müttəfiq respublikalar ilə idman əlaqələri xeyli genişlənmiş, idmanın bütün sahələrində ustalığın nümayişi və təcrübənin bölüşdürülməsi üçün əlverişli imkanlar, doğma, qardaşlıq münasibətləri olmuşdur.***

# Azərbaycanda idmanın inkişaf tarixi

## IV yazı

*(Əvvəli qəzetimizin 10, 12, 14-cü saylarında)*

### XX əsrin 60-cı illərində idman əlaqələri



XX əsrin 60-cı illərində bütün ölkədə olduğu kimi, Azərbaycanda da idmanın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşılırdı. Yeni idman kompleksləri yaradılır, onların maddi-texniki bazası gücləndirilir, idmançıların idman ustalığı və təcrübəsinin artırılması işinə böyük önəm verilirdi. Azərbaycan idmançılarının idman arenalarında uğurları çoxalır, idman əlaqələrinin genişləndirilməsi yarışlarda idmançıların məsuliyyət hissini artırırdı. 1960-cı il iyunun 6-da Alma-Atada B qrupu üzrə ustalardan ibarət komandaların ölkə birinciliyi uğrunda futbol oyunu keçirilmişdi. Alma-Atanın "Spartak" komandası ilə Kirovabadın (indiki Gəncə) "Toxucu" komandası görüşdə qələbə qazanmışdı - 3:0. Daşkənd spartakiadasında iştirak etmək üçün 1960-cı ilin dekabrında Azərbaycan pəhləvanlarından bir qrupu (X.Babaxanov, R.Yunusov, K.Abbasov, Ə.Əliyev, A.Məmmədov, F.Tahirov və s.) Orta Asiya respublikalarının ənənəvi spartakiadasına yollanmışdılar.

1961-ci ilin avqust ayında SSRİ həmkarlar ittifaqlarının VII Ümumittifaq yay spartakiadası keçirilmişdi. Spartakiadanın ilk yarışlarında 10 milyona qədər adam iştirak etmiş, sonda onların ən güclülərindən 5 min nəfəri Moskvadakı final yarışlarında öz gücləri sınamışdılar. Bu yarışlar idmanın 13 növü üzrə 6 gün davam etmişdir. Ümumi xal hesabıyla komandalar aşağıdakı qaydada düzülmüşdülər: 1. Rusiya Federasiyası- 367,5 xal; 2. Moskvanın yığma komandası- 337,5; 3. Ukrayna SSR-332; 4. Leninqrad- 305; 5. Belarus SSR- 258,5; 6. Gürcüstan SSR -242; 7. Qazaxıstan SSR-200; 8. Litva SSR- 191,5; 9. Latviya-182,5; 10. Estoniya- 175,5; 11. Azərbaycan SSR 166,5; 12. Özbəkistan SSR- 163; 13. Ermənistan SSR-129; 14. Türkmənistan SSR- 124; 15. Moldaviya SSR-118; 16. Tacikistan SSR- 116,5; 17. Qırğızıstan SSR- 68.

Həmkarlar ittifaqlarının VII Ümumittifaq yay spartakiadası çərçivəsində 6 gün çəkən 13 idman növü üzrə yarışlarda Azərbaycan idmançıları ilə Qazaxıstan və Mərkəzi Asiya respublikalarının idmançıları dəfələrlə qarşılaşmışlar.

1961-ci il avqustun 13-dən 26-dək Azərbaycan SSR-də məktəblilərin VII Ümumittifaq yay spartakiadası keçirilmişdir. Ölkəmizin təqribən 4 min məktəblisi iki həftə ərzində futbol və voleybol meydançalarında, gimnastika salonlarında, üzgüçülük hovuzlarında, şahmat taxtaları arxasında və şosse yollarında yarışmışlar. Avqustun 26-da spartakiadanın baş hakimi, Sovet İttifaqı Qəhrəmanı X.M.Məmmədov təşkilat komitəsinin və baş hakimlər kollegiyasının tapşırığı ilə spartakiada iştirakçılarını təbrik edərək bildirmişdir ki, yarışların gedişində Moskva məktəblilərinin komandası birici yerə çıxmışdır. İkinci yeri Ukraynanın gənc idmançıları, üçüncü yeri leninqradlılar, dördüncü yeri Gürcüstan məktəbliləri, beşinci yeri Rusiya Federasiyası ölkə və vilayətlərinin yığma komandası tutmuşdur. Yeddinci yerdə isə Azərbaycan məktəbliləri qərarlaşmışdılar. Göründüyü kimi, VII Ümumittifaq spartakiadasında iştirak edən Qazaxıstan və Mərkəzi Asiya respublikalarından gəlmiş məktəbli idmançılar sonrakı yerləri bölüşmüşdülər. Ancaq idmanın ayrı-ayrı növləri üzrə bu idmançılar fərqlənsələr də, ümumi nəticələrə görə sonrakı yerlərlə kifayətlənmişdilər. Məsələn, velosiped idmanı üzrə şəxsi birincilikdə oğlanlardan M.Kolyuşov (Özbəkistan SSR), qızlarda isə R.Semenyuk (Leninqrad) ən yaxşı nəticə göstərmişdilər. Eləcə də stolüstü tennis yarışlarının son günü Qırğızıstanın, Belarusun, Litvanın, Ukraynanın, Tacikistanın, Qazaxıstanın, Leninqradın və Moskvanın tennisçiləri yüksək nəticə ilə yadda qalmışdılar. Yaxud məktəblilərin futbol üzrə keçirilən final yarışlarında Azərbaycan idmançıları 2:1 hesabı ilə leninqradlılara, Qazaxıstan idmançıları 1:0 hesabı ilə belaruslara, Qırğızıstan futbolçuları RSFSR vilayətlərinin yığma komandasına 3:2 hesabı ilə qalib gəlmişdilər. "Neftçi" yay üzgüçülük hovuzunda keçirilən su polosu yarışında Azərbaycan və Qırğızıstan komandaları arasında həmyerlilərimiz böyük hesablı qələbə qazanmışdılar - 9:1.

Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun tələbələrinin Qazaxıstanın xam torpaq sakinləri ilə dostluğu 1961-ci ildən başlanıb. İdmançı tələbələr 1962-ci ildə xam torpaqlarda ay yarımdan çox qalmışdılar. Onlar Pavlodar vilayətində 7 sovxozda olmuş, burada bədən tərbiyəsi və idman işlərinin təşkilində xam torpaqlı dostlarına kömək etmişlər. Azərbaycanlı tələbələrin köməyi nəticəsində sovxozlarda yeni idman qurğuları yaradılmış, çoxlu voleybol, futbol, basketbol komandaları fəaliyyətə başlamışdı.

Onların arasında tələbə Qiyas Məmmədov güləşçi idi. O, hələ orta məktəbdə oxuyarkən, gənclər arasında idmanın güləş növü üzrə Sovet İttifaqı çempionu olmuşdur. Xam torpaqlarda olduğu zaman Qiyas "Çervono-Ukrayna" sovxozunda güləşçi gənclərdən ibarət komanda yaratmışdı. O, eyni zamanda qonşu Jelezni sovxozunda da güləşçilər bölməsi təşkil etmişdi.

Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun xam torpaqlara getmiş digər tələbəsi Aleksandr Arutyunov isə Priirtış sovxozunda oğlan və qızlarla birlikdə stolüstü tennis qurğusu düzəltmişdilər.

İdmançı tələbələr instituta qayıtmaq ərəfəsində xam torpaqlı dostları ilə hətta bir neçə yoldaşlıq görüşləri də keçirmişdilər.

1963-cü ilin martında Qazax rayonunda Azərbaycanın "Məhsul" və Tacikistanın "Hasilat" idman cəmiyyətlərinin sərbəst güləşçiləri arasında yoldaşlıq görüşü olmuşdur. Bütün çəki dərəcələrində gərgin və maraqlı keçən mübarizə nəticəsində Azərbaycan idmançıları 5:3 hesabı ilə qalib gəlmişdilər.

Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində 1964-cü ilin yanvarında ölkənin şəxsi birinciliyi uğrunda stolüstü tennis üzrə yarımfinal oyunları başlamışdı. Yarış ilk günlərdən bakılı idmançılar üçün uğurlu olmuşdu. Nikolay Novikov 3:0 hesabı ilə üç qələbə qazanmışdı. O, qazaxıstanlı Aksyonova, özbəkistanlı Totskiyə və tacikistanlı Seklauriyə qalib gəlmişdi. Azərbaycan idmançısı Rimma Poqosova ilk oyununu öz həmyerlisi Paremuzovla keçirərək, qələbəni əldən verməmişdi - 3:1. Sonrakı görüşlərdə R.Poqosova RSFSR idmançısı Kuxmenkonu (3:2) və qazaxıstanlı Yefstifayevanı (3:1) mübarizədən kənarlaşdırmışdı. Digər bakılı idmançı Tatyana Vasilyeva da üç görüşü öz xeyirinə yekunlaşdırmışdı.

Bakılı idmançı Anatoli Knijnik kişilər arasındakı yarışlarda öz həmyerlisi A.Novruzovu (3:2) və RSFSR idmançısı Şulmanı məğlubiyyətə uğratmışdı.

Həmin vaxt Alma-Atada tennisçilər dörd yarımqrup (iki qadın və iki kişi yarımqrupu) üzrə yarışırdılar. Bunların üçündə birinci yerləri Azərbaycan nümayəndələri tutmuşdular.

İlk dəfə belə böyük və məsul yarışlarda çıxış etməsinə baxmayaraq, gənc bakılı idmançı R.Poqosova yarışların sonuncu günü 6 dəfə SSRİ çempionu olmuş idman ustası Lestala və RSFSR çempionu, idman ustası Geraskinaya qalib gəlmişdi. Düzdür, bu tanınmış idmançılar finala çıxsalar da, R.Poqosovadan sonrakı ilk üçlükdə qərarlaşmışdı.

Bakılı idmançı N.Novikov öz yarımqrupunda birinci yerə layiq görülmüşdü. Azərbaycanlı idmançı A.Knijnik kişilər arasındakı yarışlarda həmyerlisi A.Novruzovu qabaqlasa da, sonrakı görüşlərdə məğlubiyyətə uğrayaraq, finala vəsiqəni əldən vermişdi. Lakin A.Novruzov isə dəfələrlə SSRİ çempionu olmuş Gennadi Averindən sonra yarımqrupu ikinci yerdə tamamlaşmışdı.

1964-cü il fevralın 21-də Bakı şəhər partiya komitəsi və Bakı şəhər icra hakimiyyətinin orqanları olan "Bakı" və "Baku" qəzetləri "Futbol mövsümü ərəfəsində" adlı yeni rubrika açmışdılar. Onlar burada bu rubrika altında ölkəmizin ən güclü komandalarının baş məşqçiləri və ya rəisləri ilə müsahibələri, "Neftçi" komandasının, respublikamızın ustalardan ibarət digər komandalarının, eləcə də Bakının klub kollektivlərinin ilk oyunları haqqında xəbərləri dərc etmək məqsədini qarşıya qoymuşdular. "Bakı" qəzeti redaksiyasının xahişi ilə Qazaxıstanın "Kayrat" komandasının yeni baş məşqçisi, SSRİ-nin Əməkdar məşqçisi Aleksandr Andreyeviç Kellerdən müsahibəni "Kazaxstanckaya pravda" qəzetinin futbol icmalçısı, Ümumittifaq dərəcəli hakim Vladimir Tolçincki götürmüşdü.



*(ardı var)*

***Əzizağa Ələkbərli,***
***Azərbaycan MEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***